# «Proqres»–«Qəbələ» 0:1

İyulun 19-da “Qəbələ” avrokuboklarda növbəti oyununu keçirib. “Qırmızı-qaralar” UEFA Avropa Liqa-



sının I təsnifat mərhələsinin cavab oyununda “Proqres”lə qarşılaşıb. Matç Lüksemburqun Differdanj şəhərində baş tutub.

Komandamız 28-ci dəqiqədə hesabı açıb. Asif Məmmədovun ötürməsindən sonra Stiven Monroz fərqlənib.

İkinci hissədə görüşün ssenarisi dəyişməyib. “Qəbələ” daha çox hücum edib, “Proqres” isə kəskin əkshəmlələrə bel bağlayıb. Hər iki qapı istiqamətində zərbələr olsa da, qolkiperlər hesabın dəyişməsinə imkan verməyib.

Beləliklə, Lüksemburqdan minimal hesablı qələbə ilə dönən “Qəbələ” iki oyunun nəticəsinə görə mübarizəni dayandırıb.

# Avropa kubokunun qalibi

Almaniyanın Saarbrükken şəhərində keçirilən cüdo üzrə Avropa kubokuna yekun vurulub. Yarışın ikinci günündə “Qəbələ” İdman Klubunun Azərbaycan milli komandasındakı daha bir təmsilçisi fəxri kürsüyə qalxıb. +100 kq çəki dərəcəsində bütün rəqiblərini məğlub edən Uşangi Kokauri Avropa kubokunun qalibi olub. İdmançımız öncə almaniyalı Andre Brettbart və kanadalı Mark Deşenesə qalib gəlib. Yarımfinalda rusiyalı Aslan Cioyevi məğlub edən cüdoçumuz həlledici qarşılaşmada yığmadakı komanda yoldaşı Şahin Qəhrəmanovu məğlub edib.



Xatırladaq ki, yarışın ilk günündə 60 kq çəki dərəcəsində mübarizə aparan Vüqar Şirinli və Kərəmət Hüseynov bürünc medal qazanmışdı.

## Faydalı bitkilər

# Yeddi dərdin dərmanı

***Kəklikotunun faydalı və müalicəvi xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur və xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur.***

1. Kəklikotu çayı spazmla (sıxılma) bağlı olan ağrıları (baş ağrısı, bağırsaq spazmı, qadın xəstəlikləri ilə bağlı ağrılar və s.) azaldır.

2. Ağız boşluğu iltihabları, tonzillit (angina) zamanı istifadə olunur. Bununla əlaqədar 1 xörək qaşığı ot 1 stəkan qaynar suda dəmlənilir, 20 dəqiqədən sonra süzülür və hər 2 saatdan bir qarqara üçün istifadə olunur.



3. Bu bitki respirator xəstəliklər (öskürək, bronxit və s.) zamanı nəfəs yollarında yığılan bəlğəmi durulaşdırır və onun çıxmasını asanlaşdırır.

4. Onun dəmləməsi bağırsaqlarda yaşayan ziyanlı mikroorqanizmləri yox edir, qurdqovucu təsir göstərir, həzmi yaxşılaşdırır.

5. Eləcə də sistit (sidik kisəsi iltihabı) zamanı yaxşı kömək edir.

6. Bu bitki cinsi funksiyasını artırır, prostatitin müalicəsində istifadə olunur.

7. Kəklikotu çox yaxşı sakitləşdirici vasitə kimi təsir göstərməklə stress, nevrasteniya, nevroz zamanı da faydalıdır.

# Musiqinin təbiətə təsiri öyrənilib

Gözəl musiqini ruhun qidası hesab edirlər, lakin onun sehrinə təkcə insanlar deyil, təbiətdə də



düşənlər var. Klassik musiqinin delfin və köpək balıqlarına müsbət təsir etdiyi də məlumdur.

AZƏRTAC xəbər verir ki, alimlər musiqinin təbiətə təsirini öyrənmək üçün bitkilər üzərində müşahidələr aparıblar. Məlum olub ki, klassik musiqi sədaları altında noxud iki gün tez yetişir, buğda isə daha tez boy atır. Aqressiv musiqilərin səslənməsi isə bitkilərin tez solmasına səbəb olur.

Musiqi dinləyərkən insanlar melodiyaya, çiçəklər isə ritmə münasibət bildirir. Sakit və klassik musiqilər hətta suyun üzündə də gözəl fiqurlar yaranmasına səbəb olur. Suyun yanında mənfi yüklü musiqinin səslənməsi zamanı molekulların daha xaotik hərəkəti müşahidə edilir.

# Bilirsinizmi?

1. Bütün tarix boyu Nil çayı iki dəfə - IX və XI əsrlərdə donub.

2. İl ərzində bir dəfə də olsun insan doğulmayan yeganə ölkə Vatikandır.

3. Uşaqlar dünyaya diz qapağı olmadan gəlirlər.

4. Dünyada ən bahalı hobbi - bağçılıq hesab olunur.

5. Ən yüksək dağ Himalay dağlarında olan (8.850 m) Comolunqma zirvəsidir.

6. Okeanda ən dərin yer Mariana çökəkliyidir. Onun dərinliyi 11022 metrdir.

7. Çində uşaqlar anadan olduğu andan 1 yaşında sayılırlar.

8. Bir qaba çoxlu fıstıq yığsanız, bir müddət sonra özü partlayacaqdır.

9. Fillər bellərindəki dəri qırışıqlarını ağcaqanadları öldürmək üçün istifadə edirlər.

10. Ən ağıllı heyvanlardan biri olan qarğalar, insanlar kimi yaşlı valideynlərini illər sonra gedib ziyarət edirlər.

**Topladı: Səfa ASLANOV.**

# İTMİŞDİR

Şamlı kənd sakini **Süleymanlı Elsevər Mətləb oğluna** Şəki şəhər 8 saylı Regionlararası Qeydiyyat-İmtahan Şöbəsi tərəfindən 15 dekabr 2011-ci il tarixdə verilmiş «BC» dərəcəli AB seriyalı 686449 nömrəli **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Bakı şəhər sakini **Səmədov Amid Zeynal oğluna** məxsus Mersedes-Benz markalı 90 MF 902 qeydiyyat nişanlı avtomobilə Bakı Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən 19 oktyabr 2015-ci il tarixdə verilmiş AC seriyalı 555615 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

---

Aydınqışlaq Bələdiyyəsinə mühasib vəzifəsində və digər vakansiyalarda işləmək üçün bələdiyyə qulluqçuları tələb olunur.

---

Bum qəsəbə sakini **Adıgözəlzadə Orxan Qəzənfər oğluna** Şəki Regional Qeydiyyat İmtahan və Texniki Baxış Şöbəsi tərəfindən 9 avqust 2012-ci il tarixdə verilmiş «BC» dərəcəli AB seriyalı 733653 nömrəli **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **İsmayılov Məzahir Yaqub oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 774 nömrəli (kod 40614018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarı ilə Çarxana kənd sakini **Əliyeva Lütviyyə Soltan qızına** verilmiş JN seriyalı 045 F nömrəli (kod 40604048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Yunusova Güleyfə Səddin qızına** verilmiş JN seriyalı 305 A nömrəli (kod 40616018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Daxili İşlər Nazirliyinin Lənkəran 5 saylı Rayonlararası Qeydiyyat-İmtahan Şöbəsi tərəfindən **Mirzəyev Nurəddin Ağamoğlan oğluna** məxsus 1999-cu ilin istehsalı olan VAZ 21060 markalı avtomobilə 23 avqust 2006-cı il tarixdə verilmiş AA seriyalı 882223 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 3 saylı qərarı ilə Qəbələ şəhər sakini **Yusibov İspəndiyar Şirin oğluna** verilmiş JN seriyalı 2525 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2018-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş Zirik kənd sakini **SƏMƏD ANAR OĞLU ALIŞOVUN** vəfatından kədərləndiyini bildirir, əzizlərinə və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzetinin kollektivi torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş Zirik kənd sakini **ALIŞOV SƏMƏD ANAR OĞLUNUN** vəfatından kədərləndiyini bildirir, əzizlərinə və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1800